# Viktor Hüqonun qadınları

■ Özcan Erdoğan

***Əvvəli ötən sayda***

*"Mələyi sevirəm, qadını sevirəm,*
*Allah məni sizinlə tamamladı.*
*Gözəlliyə baxmaq üçün gözüm,*
*Qəlblərə olan sevgimi yaratdı"*

Adele Sent-Büve ilə münasibət yaşayarkən Viktor Hüqo da artıq həyatında başqa bir yolla addımlayırdı. "Marion de Lorme" adlı dram əsərini tamamladıqdan bir neçə ay sonra başqa bir dram üzərində işləməyə başlamışdı: "Hernani". Bu oyun böyük reaksiyalara səbəb olsa da, "Comedie Française"də səhnəyə qoyuldu və qala gecəsində Hüqonun yaxın dostları Cerard de Nerval, Aleksandr Düma, Seofil Gulter əsəri ənənəçilərə qarşı müdafiə edərək böyük bir uğur qazanmasına səbəb oldular. Hüqo öz dahiliyini "Hernani" ilə bir daha sübut etdi. Və dərhal "Paris Notr-Dam"ı yazmağa başladı.

Davamlı olaraq dram əsərləri yazan Hüqonun "Kral əylənir", "Lucrece Borgia", "Marie Tudor" pyesləri bir-birinin ardınca səhnələşdirildi. Digər tərəfdən şəxsi həyatı da əsərlərinə təsir etməyə başladı.




1834-cü ildə Sent-Büve Viktor Hüqonun Mirabü haqqındakı yazısına və bir il sonra yayımladığı "Gündoğumu nəğmələri" kitabına qarşı çox sərt və düşməncəsinə yazılmış tənqidi dərc etdirdi.

Adele Sent-Büvedən gələn məktubları bir neçə qeyd götürdükdən sonra məhv edirdi, həm də ərinə qarşı olan soyuq, uzaq və barışmaz davranışını da davam etdirirdi, Viktor Hüqonun təmiz, saf uşaqlıq eşqi ilə getdikcə daha çox küllənirdi. Hüqo indi əvvəllər fərq etmədiyi dəyişiklikləri müşahidə edirdi. Vücudu və özü ilə barışdı. Tezliklə cinsəl həyatını özünə heyranlığı ilə tanınan Cülyetta Druet ilə yenidən kəşf edəcəkdi. Adele eyni vaxtda ərini geri almaq üçün mübarizə aparmışdı. Ancaq Hüqonun həyat yoldaşına münasibəti indi sadəcə dostluq səviyyəsində idi. Boşanmadılar. Bəzən iki həyat yoldaşı kimi yan-yana, bəzən də uzaq qohumlar kimi aralarındakı məsafəni saxlayaraq yaşadılar. Sürgün illərində də bir müddət ona yoldaşlıq edən Adele şairin pul qazanmaq və nəşriyyat işlərini qaydaya salmaq üçün Brüsel, Cersi, Gumesey və Paris arasında səyahət etdi. 1863-cü ildə "Həyatına şahid birindən Viktor Hüqo" adlı bir tərcümeyi-hal yazdı. Sonrakı illərdə nəvələri tərəfindən senzuraya uğramış kitabda Adele həyat yoldaşı ilə yaşadığı təcrübələri və uşaqlığının son illərindən həyat yoldaşına olan məqamlarını dilə gətirdi. Ancaq Hüqonun müxtəlif mənbələr və sənədlərlə yazılı şəkildə dəstəklədiyi bu kitabda Cülyetta Druetdən bəhs edilmədi. Üç il sonra Hüqo dostu Bodlerə kitabı oxuduğunu və həyat yoldaşının bu işlə ona çox xoş xatirələr qoyduğunu söylədi və bir məktubda "Madam Hüqo dünyada ən qədim dostum oldu" yazdı.

Adele Brüsselə qayıtdı və 1868-ci ildə beyin qanaması keçirib vəfat edəndə, 1851-ci il çevrilişinin qəhrəmanı olan məşhur şair, Napoleonun əsas düşmənlərindən biri hələ də sürgündə idi. Yalnız ilk sevgisi həyat yoldaşının cənazəsini Fransa sərhədinə qədər müşayiət edə bildi. Ölümündən bir ay əvvəl Adele ərinə yazdı: "Qollarında ölmək xəyallarımın sonuncusudur."

*Qadın çox dəyişkəndir - ona güvənən dəlidir!*
*Çox vaxt bir qadın - küləyin qarşısında bir lələkdir.*

Doğulduqdan qısa müddət sonra yetim qalan Cülyetta Druet, şübhəsiz, Adeleden sonra Viktor Hüqonun həyatında əhəmiyyətli rol oynayan qadınlardan biri idi. Dayısı Renet Druet tərəfindən övladlığa götürülmüş gənc qadın təhsilini Parisdəki bir monastırda almışdır. Druet 1825-ci ildə model olduğu müddətdə heykəltəraş Ceyms Pradierə aşiq olduqdan bir müddət sonra onun məşuqəsi oldu. Münasibətlərindən Cler adlı bir qızları doğuldu.

Təxminən dörd il sonra Pradierin təklifi ilə aktrisalığa başlayan Druet karyerasının başlanğıcında idi və 1833-cü ildə Viktor Hüqonun əsəri "Lucrece Borgia"da Şahzadə Negroni rolunu aldı. Görüşdükləri ilk gündən əlli il ərzində ayrılmayan ikisinin münasibətləri Hüqonun əsassız qısqanclığı və sədaqətsizliyindən keçəcəkdi.

Negroni roluna görə yüksək qiymətləndirilsə də, Drouet Viktor Hüqonun əsəri olan "Mari Tudor"da uğursuz oldu. Gündə iki, hətta üç dəfə səhnəyə çıxan və kulisdəki intriqanı dəf edə bilməyən aktrisa karyerasını şair üçün bitirmək qərarını vermiş və özünü, demək olar ki, ona həsr etmişdi.

Sevgilisinin öncəki münasibətlərinə görəmi, yoxsa anasının atasını aldatmasından və ya Adelenin Sent-Büve ilə münasibətlərindən dolayımı, Hüqo həmişə Druetin ona xəyanət etməsindən narahat idi. Ancaq Druet sevgilisi olmadan evdən bayıra çıxmırdı.

Cülyetta Druetin Hüqoya olan ehtiraslı sevgisi bir-birinə yazdıqları iyirmi min məktubun onlar öldükdən sonra kitab şəklində toplanmasına da səbəb oldu.

*Bu gülən oğlan qaçırdı, oynayırdı,*
*Ey təbiət, onu alıb nə qazandın?*
*Cürbəcür quşların yox idi mi sənin?*
*Ulduzların, meşələrin, mavi səman, dənizin...*

Anası Sofi, Adele və Cüliyetta Druetdən başqa Viktor Hüqoya təsir edən başqa bir qadın da vardı ki, onunla münasibətləri və bağı şairin həyatında böyük bir dəyişikliyə səbəb olardı. Hüqonun böyük qızı Leopoldine arasındakı sevgi o qədər böyük idi ki, 17 fevral 1843-cü ildə qızı evləndikdən və evdən ayrıldıqdan sonra sevimli Cüliyetta Druetə belə bir məktub göndərdi:

"Məni tərk edir. Üzgünəm. Yoldan keçən biri tərəfindən gülü qoparılmış gül ağacı qədər üzüldüm. Az əvvəl ağladım..."

1837-ci ildə nəşr olunan "İçimdəki səslər" adlı kitabında Viktor Hüqonun "Sevgi, əziz qızım, güzgüyə bənzər..." şeiri Leopoldinenin gənc həyatının bədbəxtliklə sona çatmasının xəbərçisi kimi görünür. Çünki şeirin yazılmasından altı il sonra Leopoldine 4 sentyabr 1843-cü ildə Sen Neliridə həyat yoldaşı Çarles Villekür ilə gəmi gəzintisində suya düşüb boğuldular. Çox yaxşı üzgüçü olduğu bilinən əri onu xilas etmək üçün üzsə də, onu ölümdən yaxa qurtara bilmir.

*Sevgi, əziz qızım, ən çox güzgüyə bənzəyir,*
*Gözəl və şux xanımlar onda görünməyi sevir.*
*Xəyallar içində, xoşbəxt dayanırlar qarşısında,*
*O güzgü ürəklərini bir fəzilətlə fəth edir,*
*Günahları qovur, pisliyi məhv edir,*
*Sizləri saflaşdırır, ruhlar bəyaz səhifədir!*
*Bir az enməyə cəhd etsən, ayağın sürüşür,*
*uçurumdur, əllərin tutmaq üçün yer axtarır,*
*Gücün çatmaz, düşərsən suyun girdabına,*
*Sevgi gözəldir, safdır, ölümlüdür, inanma!*
*Sənin kimi kiçik qızlar çaya atılar,*
*Əkslərini görüb, suyu udarlar, boğularlar.*

Hüqo sentyabrın 9-da şair bu faciəli hadisəni İspaniyaya səfərdən qayıdarkən qəzetdən oxudu və yerə yıxıldı. Bir gün sonra Hüqo dostu Luis Bertinə yazdı:

"Oxudum. Beləliklə, həyatımın, ürəyimin yarısının öldüyünü öyrəndim. Tanrım! Sənə nə etdim?! O, Yer üzündə cənnətdə yaşamağımızı istəmir. Geri aldı cənnətimi. Zavallı mələyim. Onu bir daha görməmək..."

Hüqo qızımın ölümündən və yaşadığı əzablardan sonra "Düşüncələr" kitabını yazacaqdır. Çəkdiyi əzablar, sarsıntılar əsərdəki ən diqqətəlayiq şeirlərdə ifadəsini tapacaqdı. Leopoldinin olmaması Hüqonun varlığını şübhə altına saldı. Bu boşluq onu hadisələr və duyğuların daha universal miqyasda idarə etməsinə səbəb oldu.

"Qızının ölümündən sonra sakit və depressiv bir dövrə girən Hüqo bu dövrdə kitab nəşrinə fasilə verdi.

Viktor Hüqonun adı çəkildiyi zaman sadəcə romantik, işinə sadiq bir insan haqqında danışmaq ədalətsizlik olardı.



Şübhəsiz ki, sevgi də Hüqonun şəxsiyyətinə və əsərlərinə təsir edən vacib anlayışlar idi.

Qadınlara bitməyən marağı ilə tanınan Hüqo ikinci həyat yoldaşı olaraq gördüyü Cüliyetta Drueti də aldatdı. Druet ilə əlaqəsi Hüqonun çox gənc və evli bir qadın olan Leoni Biard ilə münasibət qurmasına mane olmurdu. 2 iyul 1845-ci ildə Yüksək Şuranın üzvü olan Hüqonun bu münasibətini bütün qəzetlər yazırdı. Druet bunların heç birindən xəbərdar deyildi. Ta ki Biard Hüqonun ona yazdığı məktublardan ən gözəlini seçib ona göndərənədək... Məktublardan sonra, ədəbi dairələrin "Viktor Hüqonun sonu" olaraq gördüyü başqa bir qalmaqal başlandı. Leonie Biardın əri sevgililəri yaxalayacaq və gənc qadın cəzalandırılacaqdı. Məclis üzvü olan Hüqo isə həbsdən qurtula bilmişdi.

Hüqo tezliklə düşmənlərini sevindirən bu qalmaqalın öhdəsindən gəldi və yenidən diqqətini işinə yönəltdi. Luis Napoleon Bonapartın namizədliyini 1848-ci ildən sonra dəstəkləsə də, 1851-ci ildə bir səfər zamanı müşahidə etdiyi sosial ədalətsizlik Hüqonu sarsıtdı. Millət vəkili kimi çıxışlarında şair təhsil və mətbuat azadlığını prioritet saydı, edam cəzalarına, düşərgələrə və səfalətlərə qarşı durdu. Əsrdə iz buraxan haqsızlıqlar Hüqonun siyasi mövqeyinə dərin təsir göstərmiş və onu humanist diskursun aparıcı aktyorlarından biri etmişdir. 1851-ci ildə çevriliş başlayanda Hüqo diktaturaya qarşı dayandı və qatıldığı mitinqlərdən birində ən yaxın dostu, millət vəkili Budin öldürüldü. Qısa müddət gizlənərək yaşayan Hüqo sevgilisi Druetin köməyi ilə saxta şəxsiyyəti düzəldərək Fransanı tərk etdi. Əvvəlcə Brüsseldə məskunlaşdıqdan sonra yazdığı "Balaca Napoleon" kitabına görədən buradan ayrılıb Cersi şəhərinə köçməli oldu.

Cersidən deportasiya olunduqdan sonra Hüqo Guemeseydı ev aldı. Buranın təmir işləri başa çatdıqdan sonra ən üst mərtəbədə, dəniz mənzərəli otağı iş otağı seçdi.

III. Napoleon əfv elan etsə də, Viktor Hüqo Fransaya qayıtmadı. Onun üçün hələ də azadlığın olmadığı ölkəyə qayıtmaq mövcud hökuməti qəbul etmək demək idi. Bunun əvəzinə, iş otağında "Günahlar"ı və sonra dörd cildlik şah əsər "Səfillər"i yazmağa başladı.

**Ardı var...**

**Tərcümə edən:**
**Rəvan Cavid**